# MƏLUMAT MƏKTUBU

**Əziz həmkarlar,**

**Siz Azərbaycan xalçası üzrə "Ənənə və innovasiyalar" adlı V Beynəlxalq Simposiumda (ISAC – International Symposium on Azerbaijani Carpets) onun Akademik Komitəsi tərəfindən məruzə ilə iştirak etməyə dəvətlisiniz.**

## Simpozium 2017–ci il 17–20 oktyabr

**tarixlərində Bakıda keçiriləcəkdir**

**Təşkilatçılar**

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və "Azərxalça" ASC, Şərq xalçaları üzrə Beynəlxalq Konfransın (ICOC) texniki dəstəyi və himayəsi ilə.

**Məruzələrin hədəfləri**

Simpozium çərçivəsində müasir Azərbaycanın və/o cümlədən də azərbaycanlıların tarixən kompakt yaşadıqları ərazilərdə köçəri və oturaq həyat tərzi ilə məşğul olan əhali tərəfindən və peşəkar karxanalarda toxunan xovlu və xovsuz məmulatlara və tikmələrə aid bütün ənənəvi təqdqiqat sahələri nəzərdən keçiriləcəkdir. Bundan başqa sözügedən məmulatlarda tətbiq olunan strukur və texniki özəlliklər, çeşidli bədii tərtibat (çeşnilər) və onların mənşəyi, tikmə və xalçalar arasındakı qarşılıqlı əlaqə, hazırlanma tarixləri (tarixqoyma), sənədli sübutlar və elmi tədqiqatlar, konservasiya və bərpa üsulları, təbii boyama yolları, bənzətmə və surətlər, müasir istehsalat və bədii innovasiyalar, Azərbaycan xalçaları və tikmələri kolleksiyalarına və kolleksionerlərə həsr olunmuş məruzələr də dəstəklənməkdədir.

**Məruzə və tezislərin təqdim olunma şərtləri**

Simpoziumun işlək dilləri - azərbaycan, ingilis və rus dilləridir. Simpoziuma təqdim edilən məruzələr orijinal və bu vaxta qədər heç bir yerdə dərc olunmamalıdır. Məruzələr faktlara əsaslanan yeni məlumat və dəlillər üzərində qurulmalıdır. Şifahi çıxışın maksimal hüdudu – 20 dəqiqədir. Rəqəmsal təsvirlərin təqdimində Power Point və ya ona analoji olan hər hansı digər bir proqramın istifadəsi mütləqdir.
500 sözdən artıq olmayan tezislər 2017-ci ilin martın 15-də saat 23:59-dan (QOV+4) gec olmamaq şərtilə ingilis dilində **http://bit.ly/2gpy4F3** linkinə göndərilməlidirlər. Məruzələrin qəbul edilib edilməməsi barəsində məruzəçilər 2017-ci ilin aprelin sonuna qədər məlumatlandırılacaqlar. Sinxron tərcümənin keyfiyyətinin artırılması məqsədilə qəbul olunmuş məruzələrin tamamlanmış versiyası Simpoziumun Akademik Komitəsinə rəqəmsal şəkildə təqdim edilməlidir. Tamamlanmış məruzələr 2017-ci ilin avqustun 31-dən gec olmayaraq Komitəyə təqdim olunaraq yekun məhsul kimi qəbul edilmiş sayılacaq və bu bir sənəd kimi məruzəçi tərəfindən çəkilən məsrəflərin mümkün kompensasiyası üçün (bax aşağıda) əsas hesab olunacaqdır.

**Məsrəflərin kompensasiyası və qonorarlar**

Simpoziumun bütün şərt və tələblərinə (ilkin nəşr daxil olmaqla) cavab verən və məruzələrini nəşr üçün vaxtında təqdim edən namizədlərin hamısı oteldə ikinəfərlik nömrə ilə təmin olunacaqlar. Məruzəçilərin yol xərclərinin ödənilməsi də mümkündür.

**Konfransa ərizələrin qeydiyyatı www.ISACBaku.org saytında mümkündür.**

**Yaranan suallarla bağlı ac@ISACBaku.org ünvanında "Mövzu" qrafasında "Academic Programme" başlığını qeyd edərək müraciət etməyiniz xahiş olunur.**

**www.ISACBaku.org**